"Razılışdırılıb"
Gəncə Gənclər və İdman Baş İdarəsi
Rəis _____ M.Cəfərov
Əsas 22.01.2019-cu il tarixli
təqvim planı
"___" _____2019

"Təsdiq edirəm"
Azərbaycan Milli Karate
Federasiyasının Prezidenti
_____ Y.Bəşirov
"10" _____2019

Azərbaycan Milli Karate Federasyasının Qərb Regionun təşkil etdiyi uşaq və yeniyetmələr arası "Gəncə kuboku" Beynəlxalq turnirin

ƏSASNAMƏSİ

1.Məqsəd və vəzifələr

1.Regionda karate növünün məhşurlaşdırılması.
2.İdmançıların mənəvi və fiziki hazırlığının inkişaf etdirilməsi.
3.İdmançıları və hakimlərin ustalıqlarının təkminləşdirilməsi
4.Gələcək nəslin qəhrəmanlıq və vətənpərvərlik ruhunda tərbiyə edilməsi
5. Yarış Gəncə şəhərinin Avropanın İdman şəhəri seçilməsi ilə əlaqədar təbliğat xarakteri daşıyır.

2.Turniri təşkil edən təşkilatlar

1.Yarışın keçirilməsində ümumi rəhbərlik A.M.K.F. Gəncə Regional şöbəsi ilə Gəncə şəhər Gənclər və İdman Baş İdarəsi həyata keçirir.
2.Yarışın keçirlməsi A.M.K.F.-nin [redacted] hakimlər heyyətinə həvalə edilir.

3.Yarışın keçirilmə yeri və tarixi

1. "Gəncə Kuboku"Beynəlxalq turnir 1-2.06.2019-cu il tarixində Gəncə şəhərində təşkil edilir.
2.Yarış Gəncə Olimpiya İdman Kompleksində 01.06.2019-cu il tarixində saat 10^{00}-da başlayacaq.
3.Mandat komissyası 31.05.2019-cu il tarixdə saat 12^{00}-dan 17^{00}-dək Syoqun İdman klubunu məşqçilər otağında fəaiyyət göstərəcək.
4.Sifarişlə birgə iştirakçıların şəxsiyyətini təsdiq edən sənəd mandat komissiyasına təqdim etmək vacibdir.

4.Yarışın qaydaları.

1.Yarışda 7 KYU-dan (sarı kəmər) yuxarı karateçilər iştirak edirlər.

2.Yarış WKF tərəfindən müəyyən edilmiş qaydalar üzrə (8 xal fərqi) ilə 6x6 və 8x8, ölçülü taamidə keçirilir.

3.Hər məşqçi yarışda hər çəki və yaş kateqoriyasında məhdudiyətsiz sayıda idmançı ilə təmsil edə bilər.

4.Yaş qrupları

Uşaqlar:

6-7 yaş kumite (oğlanlar) – 20 kq, + 20 kq (1.5 dəqiqəlik döyüş)
8-9 yaş kumite (oğlanlar) – 25 kq, -30 kq, 35-kq, +35kq (1.5 dəqiqəlik döyüş)
10-11 yaş kumite (oğlanlar) – 30 kq, 35 kq, -40kq, +40kq (1.5 dəqiqəlik döyüş).
12-13 yaş kumite (oğlanlar) – 38kq, -42kq, -50kq, +50kq, (1.5 dəqiqəlik döyüş)
14-15 yaş kumite (oğlanlar) – 52kq, -57 kq, -63 kq, -70kq, +70kq (2 dəq. döyüş)
6-8 yaş kata – kata seçimi sərbəsdir
9-11 yaş kata – kata seçimi sərbəsdir
12-15 yaş kata – kata seçimi sərbəsdir

5.Ekipirovka

1.Yarış iştirakçıları ağ rəngli karategi və müvafiq kəmərlə (AKA, AU qırmızı və göy) çıxış etməlidirlər. Kentoslar, kapa, ayaq və sinə qoruyucuları vacibdir.

2.Hakimlər WKF qaydalarına uyğun təsdiq edilmiş formada çıxış edirlər.

6.Qaliblərin və mükafatçıların təltifi

1.Qalib və mükafatçılart A.M.K.F.-nin Gəncə Regional şöbəsinin təqdim etdiyi medal və diplomlarla mükafatlandırılır.

2.Mükafatlandırılma mərasimi, A.M.K.F. Gəncə Regional şöbəsinin idarə heyəti tərəfindən icra olunur.

7.Əlavə informasiya

1.Təşkilatın və həkimin möhürü olmayan sifarişlər qəbul olunmur.

2.Hakimlik seminarı 31.05.2019-cu il tarixində "Syoqun" İdman klubunun idman zalında saat 18^{00}-da keçiriləcək.

3.Yarışın təntənəli açılışı 01.06.2019-cu il tarixində saat 14^{00}-da başlayacaq.

4. Hər komanda 1 nəfər hakimlə iştirak etməlidirlər əks halda cərimə olunacaqlar.

Yol, qalmaq və qidalanma xərci ezam edən təşkilatın hesabına.

Əlaqə telefonları: +99450 343-27-77; +99450 597-33-73

Ünvan: Gəncə Olimpiya İdman Kompleksi

Syoqun İdman Klubu, Atatürk prospekti 134

Bu əsasnamə yarış üçün rəsmi dəvətnamədir.